# Aqrar sektorda aparılan islahatlar artıq öz bəhrəsini verir



***Azərbaycanın zəngin torpaq və su ehtiyatları, torpağın dilini yaxşı bilən kadrları var. Dövlətimiz Azərbaycan kəndinin sürətli inkişafı və tərəqqisi üçün əlindən gələni edir. Kəndli də öz növbəsində çalışır ki, əkib-becərdiyi sahədən bol məhsul toplasın. Həm özü qazansın, həm də ölkəmizin güclü və qüdrətli olmasına öz töhfəsini versin.***

Azərbaycan dövləti, şəxsən Prezident İlham Əliyev ölkəmizdə qeyri-neft sektorunun, o cümlədən aqrar sahənin inkişafını daim diqqət mərkəzində saxlayır. Regionlarda yeni aqroparklar, emal müəssisələri yaradılır. Kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər güzəştli kreditlərlə təmin edilirlər.

Sevindirici haldır ki, aqrar sektorda çalışan insanların fədakar əməyi diqqətdən kənarda qalmır. Bunun bariz nümunəsi kimi Prezident İlham Əliyevin 30 oktyabr 2021-ci il tarixli sərəncamı ilə kənd təsərrüfatının inkişafında xidmətləri olan bir qrup şəxsin orden və medallarla təltif edilməsini göstərmək olar. Şübhə yoxdur ki, bu şəxslər onların əməyinə verilən yüksək qiymət və dəyərdən daha da ruhlanacaqlar.

Qeyd etmək lazımdır ki, ölkənin hərtərəfli tərəqqisi üçün kənd təsərrüfatının sürətli və davamlı inkişafı mühüm əhəmiyyət kəsb edir. Bu, həm də milli təhlükəsizlik məsələsidir. Çünki əhalinin ərzaq təhlükəsizliyini təmin etmək ölkənin sərhədlərini qorumaq qədər vacibdir.

Başqa sahələrdə olduğu kimi, aqrar sektorda da Azərbaycanın uğurları çoxdur. Son 18 ildə bu istiqamətdə görülən işlərin miqyası və vüsəti heyrət doğurur. Təsəvvür edin, 2003-2020-ci illər arasında Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı iki dəfə artmışdır. MDB ölkələrinin heç biri aqrar sektorda belə yüksək göstəriciyə nail ola bilməmişdir.

Əldə olunan uğurlar dövlətimizin bu sahədə düşünülmüş uğurlu siyasəti sayəsində mümkün olubdur. Azərbaycanda 2004-cü ildən başlayaraq, cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə regionların inkişafı istiqamətində uğurla həyata keçirilən dövlət proqramları bölgələrdə yeni müəssisələrin açılmasına, iş yerlərinin yaradılmasına, son nəticədə əhalinin güzəranının daha da yaxşılaşmasına səbəb olubdur.

Hətta 2020-ci il ərzində yeni koronavirus pandemiyasının yaratdığı çətinliklər ölkəmizdə kənd təsərrüfatının inkişafına ciddi fəsadlar törədə bilməmişdir. Əvvəlki illərdə olduğu kimi, bu il də kənd təsərrüfatında müsbət dinamika davam etmişdir. Azərbaycanda ötən il üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 8428,9 milyon manat təşkil etmişdir ki, onun da 4400,5 milyon manatı heyvandarlıq, 4028,4 milyon manatı bitkiçilik məhsullarının payına düşmüşdür. 2019-cu illə müqayisədə kənd təsərrüfatının istehsalı 2 faiz, o cümlədən heyvandarlıq məhsulları 3,1 faiz, bitkiçilik məhsulları 0,8 faiz artmışdır.

Ölkəmizdə 2020-ci ildə 1867,3 min ton buğda, 1021,1 min ton arpa, 321,9 min ton qarğıdalı, 9,9 min ton çəltik və sair toplanmışdır. Ötən il sahələrdən 1728, 9 min ton və ya əvvəlki illə müqayisədə 1,4 faiz çox tərəvəz, 1037,6 min ton (3,3 faiz çox) kartof, 448,1 min ton (0,1 faiz çox) bostan məhsulları istehsal olunmuşdur. 2020-ci ildə 336 min ton pambıq yığılmışdır ki, bu da 2019-cu ildəkindən xeyli çoxdur. Həmçinin 253, 3 min ton (6,9 faiz çox) şəkər çuğunduru və 6,9 min ton (15, 1 faiz çox) tütün istehsal olunmuşdur.

Azərbaycanın kəndi başa çatmaqda olan 2021-ci ili də nəzərəçarpan uğurlarla yola salmaq əzmindədir. Bu ilin yanvar-sentyabr aylarında buğda, dən üçün qarğıdalı, şəkər çuğunduru, kartof, meyvə və giləmeyvə, üzüm, yaşıl çay yarpağı və tütün istehsalı və tədarükü xeyli artmışdır. Bütün bu sahələrdə respublika üzrə orta məhsuldarlıq ötən ildəkindən yüksək olmuşdur.

Prezident İlham Əliyev 2 fevral 2021-ci il tarixdə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında" Sərəncam imzalayıb. Hesab olunur ki, "Milli Prioritetlər" ölkəmizin qarşıdakı 10 il ərzində keyfiyyət etibarilə daha yüksək səviyyəyə çıxmasına imkan verəcək.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bu barədə söz düşəndə dedi ki, aqrar sektorun sürətli inkişafı üçün ölkəmizdə bütün zəruri amillər mövcuddur. Azərbaycan Prezidentinin təşəbbüsü ilə ölkəmizdə "ağıllı kənd" və "ağıllı şəhər"lərin qurulması layihələri böyük uğurla reallaşır. Bu layihələr ölkəmizin ən modern, kreativ ideyalara nə qədər açıq olduğunu bir daha bariz şəkildə nümayiş etdirir.

Olduqca qürurverici faktdır ki, bu il oktyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən "ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə yaxından tanış olublar.



Kənd Təsərrüfatı naziri İnam Kərimov dövlət başçılarına görülən işlər barədə məlumat verərək bildirib ki, layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılır. İnnovativ tikinti materiallarından istifadə edilməklə tam izolyasiya olunmuş 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir.

Qeyd olunub ki, "ağıllı kənd"də müasir şəhərsalma standartları tətbiq olunacaq. Piyada və velosiped yolları çəkiləcək. Bir sözlə, öz doğma yurdlarına qayıdacaq sakinlər üçün hərtərəfli şərait yaradılacaq. Burada kənd təsərrüfatının təşkili və inkişafı ilə bağlı da bir sıra işlər görüləcək. Artıq kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilib və lazımi innovativ texnikaların siyahısı hazırlanıb. "ağıllı kənd təsərrüfatı"nda müasir suvarma sistemlərindən istifadə olunacaq. Əkin planına əsasən müəyyənləşdirilən 600 hektar ərazidən 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər aparılıb. Burada "ağıllı idarəetmə sistemi" data və təhlil mərkəzindən həyata keçiriləcək.

Azərbayacan və Türkiyə prezidentləri Zəngilan rayonunda görülən işlərdən məmnun qalıblar və bu sahədə əməyi olanlara uğurlar arzulayıblar.

Bu yerdə başqa bir müsbət məqamı da vurğulamaq yerinə düşərdi. Beləki, hazırda ölkəmizdə işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı məhsullarının istehsalını təşkil edərək kəskin surətdə artırmaq üçün vaxt itirilmədən bütün lazımi işlər görülür.

Məsələn, bu ilin əvvəlindən minalardan təmizlənmiş təhlükəsiz 7 min hektardan artıq sahədə əkin aparılıb. Builki mövsümdə daha 20-25 min hektarda yeni əkin aparılması nəzərdə tutulub. Artıq ən yaxın aylar ərzində 100 min hektar sahənin suvarılması təmin ediləcəkdir.

İşğaldan azad olunmuş torpaqlar öz münbitliyi və məhsuldarlığına görə seçilir. Sovetlər dövründə bu torpaqlarda bol pambıq, taxıl, üzüm, tərəvəz və digər kənd təsərrüfatı məhsulları yetişdirilib, heyvandarlıq inkişaf etdirilib. Böyük potensiala malik ərazilərin yenidən əkin dövriyyəsinə qaytarılması ölkədə aqrar sektorun inkişafına təkan verəcək.

Yuxarıda sadaladığımız fakt, fikir və mülahizələri yekunlaşdırmalı olsaq, tam əminliklə demək olar ki, Azərbaycanın aqrar sektoru bu gün keyfiyyətcə yeni mərhələyə qədəm qoyub və zərrə qədər şübhə yoxdur ki, qarşıdakı illər ərzində bu istiqamətdə parlaq uğurlar daha da artacaqdır.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 16 noyabr.- S.10.